# Bölgənin nümunəvi təhsil ocağı

**Məlum olduğu kimi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 fevral 2016-cı il tarixli 30 nömrəli qərarına və Azərbaycan Respublikası təhsil nazirinin 4 mart 2016-cı il tarixli 130 nömrəli əmrinə əsasən Şəki Pedaqoji Kolleci ilə Şəki Musiqi Kolleci birləşdirilərək Şəki Dövlət Regional Kolleci yaradılmışdır.**

Bu kolleclər 2016-cı ilin iyul ayının sonunadək ayrılıqda fəaliyyət göstərmiş, avqust ayının 1-dən etibarən Şəki Dövlət Regional Kolleci şəklində fəaliyyətini davam etdirmişdir.

Bu günlərdə kollecdə olduq, görülən işlərlə maraqlandıq. Təhsil müəssisəsinin direktoru, təcrübəli pedaqoq Sərdar Şərifov region üçün əhəmiyyətli təhsil ocağının uğurlarından, qarşıda duran vəzifələrdən danışdı. Kollecin pedaqoji fəaliyyəti "Təhsil Qanunu", "Kollecin Nizamnaməsi", Təhsil Nazirliyinin və digər idarəetmə orqanlarının hərəkətdə olan normativ-hüquqi sənədləri əsasında kollec və onun struktur bölmə rəhbərlərinin hazırladıqları iş planlarına uyğun qurulmuşdur. Bu zaman Azərbaycan Respublikası təhsil nazirinin 20 aprel 1998-ci il tarixli 203 saylı əmri ilə təsdiq olunmuş "Orta ixtisas təhsili müəssisələrinin maddi-texniki təchizatı, kadr potensialı və strukturuna qoyulan minimum normalar haqqında"kı Əsasnamə tələblərinə əməl olunmuşdur.

Kollecin 3 tədris korpusu vardır və hər üçündə tədris prosesi aparılır. Hazırda kollecdə işçilərin sayı 230 nəfərdir. Onlardan 174 nəfəri müəllim, 56 nəfəri isə tədris köməkçi və s. heyətdir.

Təhsil ocağında pedaqoji şura fəaliyyət göstərmiş müddət ərzində özünün 3 iclasını keçirmişdir və pedaqoji şuranın işində Respublika Təhsil Nazirliyinin 25.02.1997-ci il tarixli 124 saylı əmri ilə təsdiq olunmuş "Orta ixtisas dövlət təhsili müəssisələrinin pedaqoji şurası haqqında"kı Əsasnaməsi əldə rəhbər tutulmuşdur. İş planına uyğun olaraq bu iclaslarda nəzərdə tutulmuş məsələlərin müzakirəsi aparılmış, pedaqoji şuralarda kollegiallıq təmin olunmuşdur.

Görülmüş işlər ardıcıl olaraq direktor yanında keçirilən struktur bölmə rəhbərlərinin yığıncaqlarında müzakirə olunmuşdur.

İlk növbədə kollecin ixtisaslı pedaqoji kadrlarla təmin olunması və maddi-texniki bazanın möhkəmləndirilməsi ön plana çəkilərək xeyli iş görülmüşdür.

Tədris ilinin əvvəlində dərs bölgüsü aparılarkən ixtisaslı pedaqoji kadrlara olan ehtiyac müəyyənləşdirilərək Respublika Təhsil Nazirliyinə müvafiq məktub göndərilmiş və Şəki Məşğulluq Mərkəzinə məlumat verilmişdir.

Aparılmış monitorinq əsasında 7 nəfər təcrübəli müəllim müxtəlif ixtisaslarda tədris olunan fənlər üzrə 1,5 stavka dərs yükü ilə kollecə əsas müəllim vəzifəsinə təyin olunmuşlar. Bundan əlavə, 29 nəfər ixtisaslı fənn müəllimi qonşu məktəblərdən dəvət olunaraq saat hesabı qaydada 0,5 stavka dərs yükü ilə təmin olunmuşdur.

2018/2019-cu tədris ilində ixtisaslı pedaqoji kadrlara olan tələbat nəzərə alınaraq yaşı 65-dən yuxarı olan 5 nəfər fənn müəllimi və 2 nəfər texniki işçi ilə 1 illik əmək müqaviləsi bağlanmışdır.

Kolleclər birləşdirildikdən sonra yeni kollec üçün Nizamnamə hazırlanmış və təsdiq üçün Təhsil Nazirliyinə təqdim olunmuşdur.

Müddət ərzində kollecin balansında olan, Gənclər küçəsi 23 ünvanında yerləşən II tədris korpusunda Təhsil Nazirliyi tərəfindən əsaslı təmir işləri aparılmışdır. Belə ki, II tədris korpusunun yerləşdiyi ərazidəki bütün tikililərin (tədris korpusu, idman zalı, akt zalı və s.) dam örtüyü tamamilə dəyişdirilmiş, binanın bütün elektrik xətləri yenidən işlənmişdir. Tədris aparılan əsas binanın I mərtəbəsi tədris otaqları ilə birlikdə, II mərtəbəsinin isə dəhlizi təmir olunmuşdur. Sinif otaqları yeni əyani-texniki vasitələrlə və müasir texniki avadanlıqla təchiz olunmuşdur. Binanın sinif otaqları, dəhliz və ətrafında izləmə kameraları quraşdırılmışdır.

Kollecin internet saytı, internet xətti hazırda vardır və fəaliyyət göstərir. Təhsil Nazirliyi tərəfindən kollecin tədris korpusunda internet xətləri çəkilmiş, lazımi modemlərlə təchiz olunmuşdur. Bu xətt tələbə-məzun elektron saytına qoşulmuş və tələbələrin hərəkəti ilə bağlı bütün məlumatlar orada yerləşdirilir.

Keçən tədris ilinə hazırlıq dövründə tədbirlər planına uyğun olaraq rəhbərlik tərəfindən ölkənin şimal-qərb zonasında əmək bazarının tələbatına uyğun olaraq ixtisaslı kadrlara olan ehtiyac öyrənilmişdir. Buna uyğun olaraq, həmin tədris ili üçün qəbul plan layihəsi hazırlanarkən kollecin kadr hazırlığına yeni ixtisasların əlavə olunması üçün təkliflər verilmişdir. Təhsil Nazirliyi kollec rəhbərliyinin təklifini qəbul edərək kadr hazırlığına dörd yeni ixtisas - "Kitabxana-informasiya təminatı", "Arxiv işi və kargüzarlıq", "Meşə və meşə-park təsərrüfatı", "Mehmanxana-turist və sanatoriya-kurort komplekslərində iaşə və servis" ixtisasları əlavə olunmuşdur.

Hazırda kollecin əyani şöbəsində 15 ixtisas – "Kitabxana-informasiya təminatı", "Arxiv işi və kargüzarlıq", "Meşə və meşə-park təsərrüfatı", "Mehmanxana-turist və sanatoriya-kurort komplekslərində iaşə və servis", "Musiqi müəllimliyi", "Fiziki tərbiyə müəllimliyi", "Təsviri incəsənət müəllimliyi", "Məktəbəqədər təlim və tərbiyə", "Texnologiya müəllimliyi", "Ailə və ev təhsili", "İnstrumental ifaçılıq", "Xor dirijorluğu", "Musiqi nəzəriyyəsi", "Xalq çalğı alətləri", "Xanəndəlik" üzrə kadr hazırlığı aparılır. Bu ixtisaslar üzrə tələbə kontingenti əsas və orta təhsil bazası üzrə müəyyənləşdirilir.

2018-ci ilin dekabrın 31-nə kollecdə 1105 nəfər tələbə kontingenti olmuşdur (əyani-1100, qiyabi-5). Bunlardan 465 nəfəri ödənişli əsaslarla təhsil alır. 2018-ci ildə kolleci 237 nəfər məzun bitirmişdir. Kolleci bitirən məzunlar sərbəst işləmək hüququ almışlar. Həmin məzunlardan 12 nəfəri həmin il respublikanın müxtəlif ali məktəblərinə qəbul olunmuşdur.

2018-ci ildə kollecin kadr hazırlığı aparılan ixtisaslarına Dövlət İmtahan Mərkəzinin apardığı imtahanların nəticəsinə görə 365 plan yerinə qarşı 330 nəfər tələbə qəbul olunmuşdur.

Kollecdə təlim və tərbiyə prosesi kompleks halda həyata keçirilir. Bu sahədə tədrisdə əvvəlki illərdə olan nöqsanlara yol verilməməsi üçün əvvəlcədən müvafiq tədbirlər görülmüşdür.

Kollecdə 14 fənn birləşməsi fəaliyyət göstərmişdir. Birləşmə sədrləri direktorun müvafiq əmri ilə təyin olunmuşdur. Fənn birləşmələri öz işlərini Təhsil Nazirliyinin 25.02.1997-ci il tarixli 127 saylı əmri ilə təsdiq olunmuş əsasnaməyə uyğun aparmışlar. Birləşmə sədrləri tərəfindən hazırlanmış iş planları tədris hissəsi tərəfindən təsdiq olunmuş, müddət ərzində nəzərdə tutulmuş işlərin əsasən yerinə yetirilməsi müəyyən olunmuşdur. Fənn birləşmələri xətti ilə 106 açıq, 141 qarşılıqlı dərs dinləmələri aparılmış, sənədləşdirilmişdir. Fənn birləşmə iclaslarında mövzu-təqvim planlarının, sillabuslarının təsdiqi, praktik və laborator məşğələlərin yerinə yetirilmə vəziyyəti, sinif yazı işlərinin planlaşdırılması və yerinə yetirilmə vəziyyəti, qış və yay imtahan sessiyasında imtahan suallarının təsdiq olunması, kurs işləri mövzularının təsdiqi, şəxsi təhsil planlarının işlənməsi və s. məsələlər müzakirə olunmuşdur.

Tədris ilinin qış və yay imtahan sessiyasında imtahanların keçirilməsi nəzərdə tutulmuşdur və imtahanlar təsdiq olunmuş qrafik üzrə aparılmışdır. Təhsil Nazirliyinin müvafiq göstərişinə uyğun olaraq imtahanların gedişi zamanı meydana çıxa biləcək münaqişəli məsələlərin həlli üçün Münaqişə Komissiyası, kollecdə isə "İmtahan Qərargahı" yaradılmış və Nazirliyin "Qaynar xətt" nömrəsi, eləcə də əlaqə telefonları binanın müxtəlif yerlərindən asılmışdır.

Kollecdə milli zəmin, ümumbəşəri dəyərlərə əsaslanmaqla tələbələrin siyasi, əxlaqi, estetik, fiziki və hərbi-



vətənpərvərlik tərbiyəsinin təşkili də diqqət mərkəzində olmuş, tələbələrimiz bir sıra kollecdaxili və şəhər tədbirlərində iştirak etmişlər. Sağlam həyat tərzinin təbliğinə geniş yer verilmiş, tələbə gənclərin sağlam inkişafı diqqət mərkəzində olmuşdur. Onların hərbi-vətənpəvərlik, əxlaqi, etik və estetik tərbiyəsinə, hərtərəfli maariflənmələrinə və asudə vaxtlarının səmərəli təşkilinə xidmət edən çoxlu sayda faydalı tədbirlər və görüşlər keçirilmişdir. İnsan hüquq və azadlıqları üzrə maariflənmə tədbirləri həyata keçirilmiş, 21 Sentyabr - Beynəlxalq Sülh Günü yüksək səviyyədə qeyd edilmişdir. 12 Noyabr - Konstitusiya Günü münasibətilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin keçirdiyi "Hüquq Olimpiadası"nda tələbəmiz rayon üzrə I, bölgə üzrə II yeri tutaraq diplom və qiymətli hədiyyələrlə təltif olunmuşdur. Təhsil İşçiləri Azad Həmkarlar Təşkilatının şəhər üzrə keçirdiyi "Kim?, Harda?, Nə vaxt?" intellektual oyununda kollecin 2 komandası iştirak edərək I və II yerləri qazanmışlar. Şəhər üzrə TGT-lərin yarışında kollecin TGT-si I yeri tutaraq "İlin TGT-si" adına layiq görülmüşdür.

Pedaqoji kollektivimiz xalqımızın tarix yaddaşına həkk olunmuş bütün tədbirləri uğurla təşkil etmiş, şəhər tədbirlərinin fəal iştirakçıları olmuşlar.

Bu tədbirlərin xeyli hissəsi Şəki Şəhər İcra Hakimiyyətinin rəhbərliyi ilə birgə keçirilmişdir. Tələbələrimiz şəhər üzrə keçirilən bir sıra yarışlarda da uğurla çıxış etmişlər. Mükafata layiq yerlər tutmuş, fəxri fərman və digər hədiyyələrlə mükafatlandırılmışlar. Hesabat dövrü ərzində kollecin II tədris korpusunda "Heydər Əliyev" lektoriyası fəaliyyət göstərmişdir. Ayrı-ayrı tədris korpuslarında müxtəlif vaxtlarda elmi-nəzəri konfranslar, dəyirmi masalar, disputlar, konsert və yaradıcılıq gecələri təşkil olunmuş, ombudsman aparatının bölgə idarəsinin əməkdaşları, yol polisi əməkdaşları, rayon prokuroru və şəhər-rayon polis şöbəsinin rəisi ilə maarifləndirici görüşlər keçirilmişdir. Elə bu yaxınlarda kollecdə şəhər gənclər və idman idarəsinin təşkilatçılığı ilə Qarabağ Müharibəsi və Aprel Döyüşlərinin iştirakçıları ilə genişmiqyaslı hərbi-vətənpərvərlik tədbiri keçirilmişdir, insan alverinə qarşı mübarizə ilə bağlı bu sahədə tələbə gənclərin maariifləndirilməsi məqsədilə həmin sahənin əməkdaşları, ekspert və mütəxəssislərilə görüşlər keçirilmişdir.

Kollecdə tələbə özünü idarəetmə orqanları ilə iş, tələbə gənclər, tələbə həmkarlar təşkilatı, tələbə elmi cəmiyyəti və qrup nümayəndələri xətti ilə aparılır və bu sahədə də xeyli iş görülmüşdür. Tələbə elmi cəmiyyəti xətti ilə hesabat dövründə bir sıra tədbir keçirilmişdir.

Müddət ərzində kollecin ünvanına aidiyyəti tabe orqanlar tərəfindən müxtəlif sorğular və hesabat formaları daxil olmuşdur.

Kollec rəhbərliyi tərəfindən bu sorğulara cavab verilmiş və hesabat formaları aidiyyəti sahələr üzrə işlənərək öz ünvanlarına çatdırılmışdır.

Tələbələrin dərsə davamiyyətinin uçotu aparılmış, üzrsüz dərs buraxma hallarına qarşı tədbirlər görülüb, rəhbərlik tərəfindən müəyyən tələbələrin ünvanlarına xəbərdarlıq məktubları göndərilmişdir.

Müəllimlər tərəfindən əmək intizamına əməl olunmasına rəhbərlik tərəfindən nəzarət edilmiş və dərs buraxan müəllimlərlə söhbətlər aparılmışdır.

Bir sözlə, kollecdə tədris prosesinin nümunəvi təşkili ilə yanaşı, əmək intizamı qaydalarına da ciddi əməl olunduğundandır ki, kollektivin uğurları ilbəil artmaqdadır.

**Söhbəti qələmə aldı:**
**İlham PƏNAHOV,**
**"Respublika".**